# KİMYA İSTEHSALATININ ÜMUMİ ELMİ PRİNSİPLƏRİNİN TƏDRİSİ METODİKASI

**G.G. Şəfaqətova, M.Ş. Lahıcova**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir Elmi-texniki tərəqqi dövründə ölkənin orta ümumtəhsil məktəblərində yetişdirilən gələcəyin ixtisasçı kadrlarına xalq təsərrüfatının ən başlıca sahəsi olan kimya sənayesinin mühüm sahələrinin nəzəri və praktiki cəhətdən öyrədilməsi xüsusi əhəmiyyətli məsələdir. Bununla əlaqədar olaraq müasir şəraitdə bu cür mütəxəssislərin hazırlanması yəni kimya sənayesi texnologiyasının nəzəri əsaslarının öyrədilməsi orta məktəb kimya fənninin tədrisindən başlanır. Müasir dövrdə kimya elmi çox böyük surətlə inkişaf edir. Beləliklə orta məktəblərdə tədris olunan kimya fənni şagirdlərə təbiət elmlərinə aid bilik metodları,müasir istehsal texnologiyaları və ətraf mühit problemləri ilə tanış olmaq üçün böyük imkanlar təqdim edir. Kimya elminin müəyyən mövzularının tədrisində kimya istehsalatının ümumi elmi prinsipləri ilə şagirdlərin tanış edilməsi onlarda kimya sənayesinin elminə və texnologiyasına yüksək maraq oyadır. Kimya elminin əsasını təşkil edən laborator-praktik məşğələlər xeyli genişləndirilməli, dərsin planını hazırlayarkən kimya elminin əhəmiyyətini göstərən təcrübələrdən misallar gətirilməsi nəzərə alınmalıdır. İndi şagirdlərin kimya ixtisası üzrə hazırlığının genişləndirilməsinə və tədris proqramlarının yerinə yetirilməsi üzərində nəzarətin gücləndirilməsinə böyük əhəmiyyət verilməlidir[1]. Bunlardan əlavə olaraq kimya istehsalat sahələrinə ekskursiyalar təşkil edilməli və orta ümumtəhsil məktəblərində kimya gecələri keçirilməli, şagirdlərə ev şəraitində edə biləcəkləri təcrübələr aparmaları üçün yol göstərilməli, dərslərdə nəzəriyənin praktika ilə əlaqəli keçirilməsi üçün məktəb rəhbərliyi və kimya мüəllimləri əlverişli laboratoriya şəraiti yaratmağa çalışmaldır. Həmçinin təhlükəli təcrübələri slaydların köməyi ilə şagirdlərə göstərmək lazımdır.

Müəllim şagirdlərə kimya istehsalatının əsasını qısa formada, yəni sxem şəklində, cədvəllərdən istifadə etməklə və slaydlar hazırlamaqla, videoçarxlar göstərməklə kimyanın xalq təsərrüfatında, məişətdə və ən əsası insan həyatında rolunu vurğulayaraq onlarda fənnə maraq və sevgi yaradır.

Eyni zamanda təşkil olunan kimya sənaye sahələrinə ekskursiyalar çox böyük təhsil-tərbiyə əhəmiyyətli olmaqla nəzəriyyə ilə praktikanı əlaqələndirən politexnik təlimin həyata keçirilməsində, məktəbin həyatla əlaqəsinin möhkəmləndirilməsində olduqca böyük rol oynayır. Ekskursiyalar zamanı istehsalat fəaliyyətinin müxtəlif sahələri ilə yaxından tanışlıq müxtəlif peşələrin

real məzmunu haqqında təsəvvür yaradır, həmçinin elm və texnikanın inkişaf nailiyyətlərini öyrənirlər. Ekskursiya dedikdə, məktəbdə təhsil prosesini real həyatla əlaqələndirən və birbaşa müşahidələr, təbiət mühitində obyekt və fenamenlərlə tanış edən bir təlim təşkilatı nəzərdə tutulur. Bu cür praktik işlərin təşkil edilməsi nəticəsində tədris prosesində bu və ya digər kimyəvi proses haqında əldə edilən elmi nəzəri biliklər əhəmiyyətli dərəcədə genişlənir və əməyin elmi əsaslar üzərində təşkilini istehsalatın istər elmi-texnoloji, istərsə də səmərəli təşkili prinsiplərini bilavasitə nümayiş etdirməyə imkan verir[2]. Həmçinin kimya istehsalat sahələrinə ekskursiya təşkil edən zaman oradakı müvafiq materiallardan, məsələn istifadə olunan xammaldan, istehsalat məhsulundan nümunələr götürməklə və onlardan istehsalata aid kolleksiya düzətməklə məktəbin kimya kabinetini əyani vəsaitlərlə zənginləşdirmək mümkündür.

Bu cür ekskursiyaların təşkili zamani şagirdlərin təhlükəsizliyi təmin edilməli və əvvəlcədən hazırlanmış plan əsasında həyata keçirilməlidir.

Ümumiyyətlə müasir kimyanın nəzəri modelləri, strukturları və terminalogiyası surətlə inkişaf edir və daha da mürəkkəbləşir. Istehsalat prosesinin mahiyyətini təşkil edən prinsipləri bilavasitə nümayiş etdirməyə imkan verir. Həmçinin sənaye və kənd təsərrüfatı müəssisələrinə, elm-tədqiqat idarələrinə təşkil edilən ekskursiyalar şagirdlərin bu və ya digər peşələrə istiqamətləndirilməsi politexnik görüş dairəsinin artırılmasında və əmək tərbiyəsində mühüm rol oynayır.

Müəllim qeyd etməlidir ki, kimya istehsalatının əsasını kimya texnologiyası təşkil edir. Şagirdlərə texnologiyanın xammaların istehsal vasitələrinə və istehsal məhsullarına emalının üsul və vasitələrini öyrənən elm olduğu izah edir və emal üsullarına isə xammalın məhsula çevrilənə qədər məruz qaldığı bütün fiziki və kimyəvi proseslər olduğu aydınlaşdırır. Kimya istehsalat müəssisələrində istifadə olunan xammallara təbii materiallardan, yarımməhsullardan nümunələr gətirilir. Şagirdlərə buradan aydın olur ki, kimya istehsalat sahələrinin əsasında keyfiyyətli xammalın seçilməsi və istehsalın düzgün və vaxtında həyata keçirilməsi durur. Bütün bunlar şagirdlərin təfəkkürlərinin inkişafına, nəzəri bilikləri tətbiq etmə bacarığının müstəqil düşünmə qabiliyətinin və dünyagörüşünün formalaşmasına xidmət edir.

Şagirdlərin kimya kursuna dair həm nəzəri, həm də praktiki əhəmiyyətli bilik, bacarıq və vərdişlərə yiyələnməsi üçün hərtərəfli şərait və geniş imkanlar yaradılmalıdır. Həmçinin kimya istehsalatının elmi prinsiplərini və buradan yarana biləcək ekoloji problemləri dərk etmələri və qazandıqları nəzəri biliklərdən yararlanaraq praktikada tətbiqini həyata keçirmələri üçün optimal yollar işlənib hazırlanmalıdır. Müasir dövrdə təhsil sisteminin surətlə inkişaf etdiyini nəzərə alaraq kimya istehsalatının nəzəri prinsiplərini əyani olaraq keçirilən mövzunun məqsəd və texnologiyalarına uyğun olaraq məlumatların toplanması, emalı,

təşkili, ötürülməsi və təcrübələrin aparılması, audio, video, qrafik nümayişlərin göstərilməsi, bir sözlə İKT vasitəsindən səmərəli istifadə etməklə aydınlaşdırılır[3].

Dərs nümunələrindən istifadə etməklə misallar gətirmək olar. IX sinifdə tədris olunan “Sulfat turşusu istehsalı” mövzusunu nümunə göstərmək olar. Burada müasir kimya istehsalatının əsas elmi texnoloji və səmərəli təşkilat prinsipləri ilə şagirdlərin əyani şəkildə tanış edilməsi nəzərə alınmalıdır. Müəllim “sulfat turşusu istehsalı” mövzusunu tədris edərkən şagirdlərə sulfat turşusunun xalq təsərrüfatında geniş tətbiq olunan yüksək əhəmiyyətli məhsullardan olduğunu deyir. Sulfat turşusu boyaların, mineral gübrələrin, partlayıcı maddələrin, süni ipəyin, qlükozanın, turşuların, duzların istehsalında, misin elektrolitik alınmasında, neft məhsullarının təmizlənməsində, akkulmuyatorlarda elektrolit kimi tətbiq olunduğunu deyərək şagirdlərdə maraq oyadır. Beləliklə, sulfat turşusunun sənayedə kontakt üsulu ilə alınmasını əyani şəkildə sxemlərdən, şəkillərdən və yaxud da slayd vasitəsilə izahını verərək şagirdlərə istehsalat prosesinin gedişini aydınlaşdırır və xammal olaraq kükürdün təbii birləşmələrindən xüsusilə piritdən istifadənin səmərəliliyindən bəhs edir[4]. Burada sulfat turşusunun alınmasını mərhələli şəkildə izahını verərək istehsal prosesinin gedişini şagirdlər üçün daha sadə və aydın etmək olar:

Birinci mərhələ, piritin yandırılaraq kükürd qazına çevrilməsi;

$$4FeS_2 + 11O_2 \rightarrow 2Fe_2O_3 + 8SO_2 \ (t^0)$$

İkinci mərhələ, kükürd qazının katalizator iştirakı ilə oksidləşərək kükürd-trioksidə çevrilməsi. Katalizator olaraq $V_2O_5$ götürülərək prosesin daha aşağı temperaturda getməsi və tarazlığı sağa yönəltməsi sənaye əhəmiyyəti vurğulanır;

$$2SO_2 + O_2 \rightarrow 2SO_3 + Q \ (t^0, \text{kat.})$$

Üçüncü mərhələ, kükürd-trioksidin hidratlaşaraq sulfat turşusu dumanı əmələ gəlməsi. Nəticədə susuz sulfat turşusu alınır ki, burada da kükürd-trioksid həll olaraq oleuma çevrilir. Müəllim bunun səbəbini sulfat turşusunun yüksək suuduculuq qabiliyyəti olması və alınan oleumdan istənilən qatılıqda sulfat turşusu hazırlanması ilə izah edir:

$$SO_3 + H_2O = H_2SO_4 + Q$$

$$xSO_{3(qaz)} + H_2SO_{4\,(qatı)} \rightarrow H_2SO_4 \cdot xSO_3 \ (\text{oleum})$$

Nəticə etibarı ilə sulfat turşusunun istehsalının fasiləsiz proses olması və burada gedən proseslərin ardıcıllığı,

- Piritin peçdə yandırılması
- Kükürd-dioksidin və havanın təmizlənmə sisteminə və sonra kontakt aparatına daxil edilməsi
- Kükürd-trioksidin udma qülləsinə verilməsi

sxematik olaraq şagirdlərin nəzərinə çatdırılır. Əvvəlki mövzular arasında inteqrasiya yaratmaqla mövzunun əhəmiyyəti vurğulanır. Burada şagirdlərin nəzərinə çatdırılır ki, sulfat turşusunun istehsalının əsas elmi prinsipləri: istehsalat proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması, kimyəvi reaksiyaların getməsi üçün optimal şəraitin yaradılması, kimyəvi reaksiyalarda yaranan istilikdən istifadə edilməsi və s. digər kimya istehsalat proseslərinin hamısına tətbiq olunur. Bu cür əlaqələndirmələr şagirdlərin kimya elminə və istehsalatına olan maraq dairəsini genişləndirir.

## İstifadə edilmiş ədəbiyyat:


1. Əliyev R.Y., Əzizov Ə.T. Kimyanın tədrisi metodikası, II hissə, Bakı, 2006,
2. М Аржакова М.И., Андреева М.П. “Использование виртуальные экскурсий на уроках химии, Москва,2017
3. Səlimova N.Ə., Şahpələngova B.Ş. “Ümumi kimya texnologiyası” . Bakı, 2013
4. Mustafa Ş., Lətifov İ. Kimya. Ümumtəhsil məktəblərinin 9cu sinif üçün dərslik. Bakı, 2016

*Г.Г.Шафагатова, М.Ш. Лахиджова*

**Методы преподавания общих научных принципов химического производства**

**РЕЗЮМЕ**

Основной целью статьи является преподавание общих научных и теоретических основ производства химии в процессе преподавания химии и объяснение темы «производства серной кислоты». Установлено, что преподавание уроков, связанных с химией, способствует развитию мышления учащихся, умению применять теоретические знания и перспективы.

*G.G. Shafagatova, M.Sh. Lahicova*

**Methods of teaching general scientific principles of chemical production**

**SUMMARY**

The main purpose of the article is to teach the general scientific and theoretical principles of chemistry production in the process of chemistry teaching and to explain the theme of "production of sulfuric acid". It has been established that the teaching of chemistry-related lessons contributes to the development of students' thinking, the ability to apply theoretical knowledge and the outlook.

**Açar sözlər:** kimya istehsalatı, ekskursiya, sulfat turşusu, pirit, katalizator

**Ключевые слова:** химическое производство, экскурсия, серная кислота, пирит, катализатор

**Key words:** chemical production, excursion, sulfuric acid, pyrite, catalyst.